# 17. MƏTN

**Yerdə qalan faktları bir yerə toplayın.** Hansı məlumatlar lidə daxil olmasa da, onların süjetlə əlaqəsi var? Bu faktları üç yerə ayırın: 1) liddə danışdığımız xəbəri anlamaq üçün vacib olanlar, 2) çox vacib olmasa da, kontekst olanlar, 3) vacib olmayan uzaq kontekst.

*2*

Xəbəri icra başçısı bildirib, hökumətin qərarını isə görməmişik. İkinci əl informasiyadır və kontekstə görə əhəmiyyətini müəyyən etmək çətindir.

a) Tikinti üçün ərazi barəsində qərarı hökumət qəbul edilib.

**Haradan bilirik? Press-relizin mətnində icra başçısının sözlərinə istinad var:** "İcra başçısı Həsən Məmmədov <...> deyib ki, hökumətin dünənki iclasında <...> yekun qərar qəbul edilib."

*2*

Oxucu üçün vacib deyil. Həm də biz sona qədər əmin deyilik ki, qərarı kim qəbul edib. Yalnız icra başçısının sözlərindən bilirik.

b) Hökumət bu qərarı fevralın 14-ü qəbul edib.

**Haradan bilirik? Press-relizin mətnində icra başçısının sözlərinə istinad var:** «İcra başçısı Həsən Məmmədov <...> deyib ki, hökumətin dünənki iclasında <...> yekun qərar qəbul edilib».

*2*

Bu kontekstdir. Əksər oxucular bu müzakirələrindən çox güman xəbərdardır. Onlar üçün xəbər deyil.

c) Tikinti üçün ərazi seçimini iki il müzakirə ediblər.

**Haradan bilirik? Press-reliz icra başçısından sitat gətirir:** «zavodun tikiləcəyi yerlə bağlı müzakirələrə iki il vaxt itirmişik».

*3*

Vacib deyil. Hadisənin yeri sırf təsadüfidir və süjetlə bağlı deyil. Bunu qeyd etməmək, ya da ən axırda qeyd etmək olar. Uzaq kontekst.

d) İcra başçısı qərar barədə Nərimanabadda yerləşən «Cəsurlar» klubunda məlumat verib.

**Haradan bilirik? Press-relizdən:** «<...> icra başçısı Həsən Məmmədov <...> "Cəsurlar" klubuna baş çəkib».

*3*

Kifayət qədər uzaq kontekst.

e) İcra başçısı qərar barədə məlumatı, sakinlərdən birinin sualına cavab verən zaman bildirib.

**Haradan bilirik? Press-relizdən:** «Görüşün sonunda uşaqlar və onların valideynləri icra başçısına öz suallarını veriblər. Valideynlərdən biri...»

*3*

Uzaq kontekst.

f) Sualı verən sakin zavodun nə dərəcədə təhlükəli ola biləcəyi haqda maraqlanırdı.

**Haradan bilirik? Press-relizdən:** «Valideynlərdən biri <...> məişət tullantıları zavodu haqda sual verib və onun ekologiyaya mümkün təsirləri barəsində soruşub. O, xüsusən də sakinlərin şəhər ətrafındakı çoxsaylı bağlarının gələcək taleyindən narahat olduğunu dilə gətirib».

*1*

Vacibdir. Çünki burada söhbət potensial münaqişələrdən gedir. Bu münaqişələr zavodun tikilməsi qərarı verilən ərazi ilə bağlı olacaq.

g) İcra başçısı razılaşır ki, qərar ideal deyil və kimlərinsə xoşuna gəlməyə bilər.

**Haradan bilirik? Press-reliz icra başçısından sitat gətirir:** «çox çətin qərardır».

*1*

Vacibdir. Çünki tikinti yeri üçün niyə Məmmədli kəndinin seçildiyini izah edir. Eləcə də icra başçısından dolayı sitatı izah edir.

h) Məmmədli kəndi şəhərdən uzaq olmayan yeganə ərazidir ki, zavodun tikintisi üçün ekoloji qanunvericilik məhdudiyyətləri yoxdur və həmçinin kənd təsərrüfatına ciddi ziyan dəyməyəcək.

**Haradan bilirik? Press-reliz icra başçısından sitat gətirir:** «burada qorunan ərazilər, eləcə də iri kənd təsərrüfatı obyektləri yoxdur».

*1*

Vacibdir. Çünki mümkün münaqişələrə baxmayaraq, zavodun niyə tikilməli olduğunu izah edir.

i) İcra başçısı hesab edir ki, zavod rayona lazımdır.

**Haradan bilirik? Press-reliz icra başçısından sitat gətirir:** «bu zavod bizim rayon üçün olduqca əhəmiyyətlidir" və "günü-gündən abadlaşan rayonumuzda zibil məsələsini birdəfəlik həll etmək lazımdır».

*1*

Vacibdir. Çünki qərarın əhəmiyyətini vurğulayır.

j) İcra başçısı düşünür ki, tikinti üçün ərazinin seçilməsi çox vaxt aparıb.

**Haradan bilirik? Press-reliz icra başçısından sitat gətirir:** «zavodun tikiləcəyi yerlə bağlı müzakirələrə iki il vaxt itirmişik».